*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 220-225* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.220*

# Şərq və Qərb sivilizasiyaları kontekstində İrəvan Dövlət Azərbaycan Dram Teatrı

**Gülxarə Əhmədova**
Naxçıvan Dövlət Universitetinin Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri,
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi
E-mail: gulxareehmedova1966@gmail.com

**Annotasiya.** İlk növbədə, bu gün ölkəmizdə teatrların maddi-texniki bazası müasir dünya standartlarına uyğun möhkəmləndirilmiş, kollektivin yaradıcılıq axtarışları yeni istiqamətdə davam edərək maraqlı tamaşaların hazırlanması üzrə nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə proqramları genişləndirilmişdir. Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsənətin böyük hamisi kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Bu gün şanlı amal *Müzəffər Ali Baş Komandan*, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu dəstək təkcə Bakıda və regionlarda yaradılan teatrları əhatə etmir, eyni zamanda *90-cı illərdə Azərbaycanın torpaqları mənfur ermənilər tərəfindən işğal edildikdən sonra həmin ərazilərdən Bakıya köçürülən teatrları da öz çoxşaxəli inkişafına daxil edir. Qeyd edək ki, həmin illərdə bir qaçqın, üç məcburi köçkün teatrı paytaxtda fəaliyyətə başlamışdır. İrəvan, Şuşa, Ağdam və Füzuli Dövlət Dram Teatrlarının bundan sonrakı taleyi beləliklə Bakı ilə bağlanmışdır. Uzun illər bir neçə dəfə ünvanlarının dəyişməsi teatrların fəaliyyətini çətinləşdirsə də, onlar bu yolda davam etmək zərurəti hiss edir və daim öz üzərlərində çalışaraq mübarizələrinə davam edirdilər. Məqalədə həmin teatrlardan biri,* İrəvanda Azərbaycan dilində yaradılan ilk teatr olan İrəvan Dövlət Azərbaycan Dram Teatrından bəhs olunub. Qeyd edək ki, Ermənistandan deportasiya olunduqdan sonra teatrın kollektivi Bakıda Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətini davam etdirmiş və Abşeron mədəniyyət sarayında yerləşdirilmişdir. 1995-ci ildən isə teatra yenidən dövlət statusu verilmişdir. İndiki H.Sarabski adına Mədəniyyət Sarayında məskunlaşdırılmışdır.
**Açar sözlər:** İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Bakı, Şərq, Qərb, Azərbaycan, mədəniyyət, inkişaf, bu gün, dünən.

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2025; qəbul edilib – 18.03.2025

# Irevan State Azerbaijan Drama Theater in the Context of Eastern and Western Civilizations

**Gulxare Ahmadova**
Head of the Department of Theater and Cultural Studies of Nakhchivan State University,
Doctor of Philosophy in Philology, Associate Professor,
Honored Cultural Worker of the Republic of Azerbaijan
E-mail: gulxareehmedova1966@gmail.com

**Abstract:** First of all, today the material and technical base of theaters in our country has been strengthened in accordance with modern world standards, the creative searches of the collective have continued in a new direction, preparing new interesting performances, and internship programs

with prestigious Western, including European theaters have been expanded. Undoubtedly, the services of the national leader of the Azerbaijani people Heydar Aliyev, who has always won the endless sympathy of those working in this field as a great patron of culture and art during all periods of his leadership in our country, are unparalleled. Today, this glorious endeavor is successfully continued by the Supreme Commander-in-Chief, President of the Republic of Azerbaijan Ilham Aliyev. This support covers not only the theaters created in Baku and the regions, but also the theaters that were transferred to Baku from those territories after the occupation of the territories of Azerbaijan by the hated Armenians in the 90s. It should be noted that in those years, 1 refugee and 3 internally displaced persons theaters began operating in the capital. The further fate of the Yerevan, Shusha, Agdam and Fuzuli State Drama Theaters was thus tied to Baku. Although the change of addresses several times over many years made the activities of the theaters difficult, they felt the need to continue on this path and constantly worked on themselves and continued their struggle. The article discusses one of these theaters, the Yerevan State Azerbaijan Drama Theater, which was the first theater created in Yerevan in the Azerbaijani language. It should be noted that after being deported from Armenia, the theater's collective continued its activities as a theater-studio under the Academic National Drama Theater in Baku and was housed in the Absheron Palace of Culture. Since 1995, the theater has been given state status again. It is now housed in the Palace of Culture named after H. Sarabski.

**Keywords:** Yerevan State Azerbaijan Drama Theater, Baku, East, West, Azerbaijan, culture, development, today, yesterday.

## Giriş / *Introduction*

Azərbaycanın mədəniyyət tarixində hər daim Şərq və Qərb svilizasiyaları sintez təşkil etmişdir. Bir-biri ilə ən sıx əlaqədə olan bu iki estetik istiqamət Azərbaycan teatrında milli ilə bəşərinin, Şərq mentaliteti və sənət spesifikası ilə Avropa teatr ənənələrinin vəhdətini yaratmışdır. Bu vəhdət yalnız milli teatr sənətimizin yox, ümumiyyətlə, Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamış, onun xarakterik estetik xüsusiyyətinə çevrilmişdir. Tarixən mədəniyyətin beşiyi sayılan Qafqazın ən qocaman sənət ocaqlarından olan İrəvan Dövlət Azərbaycan Teatrı ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanda teatr sahəsində daha ciddi uğurlara imza atdı. “Teatr 1905-ci və 1918-ci illər qırğınlarında öz dədə-baba yurdundan didərgin salınmış, Cənubi Azərbaycana pənah aparmış, orada fəaliyyətini səngitməmişdir. 1920-ci ildə öz yurduna dönən teatrın dinamik fəaliyyəti 1928-ci ildə ona dövlət statusunu qazandırmışdır. 1935-ci ildə teatra ölməz dramaturqumuz Cəfər Cabbarlının adı verilmişdir. İkinci Dünya müharibəsi illərində Ermənistan adlandırılan respublikada ən məhsuldar teatr olaraq fərqlənmişdir. Bunu görən erməni millətçi-faşistlər teatrı 1951-ci ildə tamamilə bağlamışdılar. Bağlansa da, xalq teatrı statusunda da olsa, bu əzmkar, prinsipial sənət ocağının fədailəri fəaliyyətlərini dayandırmamış, yeni-yeni səhnə əsərlərinə həyat vermişlər. 1967-ci ildə Azərbaycanın böyük ziyalılarının və yerli təəssübkeşlərin səyi ilə teatr yenidən bərpa olunaraq öz dövlət statusuna qovuşmuşdur” [9].

**Müzakirə:** Elçin bu şanlı yolu öz məqaləsində bu cür şərh edir: “Bizim teatrımızın inkişafının böyük bir mərhələsi sovet dönəminə təsadüf etdi, ancaq hakim ideologiyanın yaratdığı estetik-inzibati (!) çərçivələrə baxmayaraq, elə həmin dövrün özündə də bu teatr böyük yaradıcılıq qələbələri əldə etdi, milli-mənəvi dəyərlərə söykənərək antik dövrdən üzü bu tərəfə gələn zəngin beynəlxalq teatr ənənələrindən yaradıcı surətdə istifadə etdi, həm məzmun, həm də forma baxımından müasir bir sənət səviyyəsinə qalxmağı bacardı” [4].

1882-ci ilin əvvəllərində İrəvan şəhər gimnaziyasının müəllimi, tanınmış maarifpərvər Məşədi İsmayıl özünün şagirdləri ilə Vasaq Mədətovun “Tamahkarlıq düşmən qazanır” pyesini tamaşaya hazırlayıb. Bununla da İrə-

vanda peşəkar Azərbaycan teatrının təməli qoyulub. Həmin əsər ikinci dəfə 1882-ci il aprel ayının 2-də təzə ifaçılarla oynanılıb. Əsas rolları müəllim və şagirdlərdən Mizrə Xəlil Hacıyev (Məmmədqulu), Rüstəmxan Abbasquluxanov (Fətəli Mirzə), Məşədi İsmayıl (Hacı Fərəc) oynayıblar.

Məşədi İsmayıl teatrın fəaliyyətinin önəmini bildiyi üçün bu mədəni prosesi unudulmağa qoymayan ziyalılardan olub. 1883-cü il mart ayının 10-da o, böyük əziyyətlərlə İrəvanda yaşayan Rzayevin "Könülsüz nigah" birpərdəli didaktik pyesini tamaşaya qoyub. Daha sonra təxminən iki il sonra görkəmli pedaqoq, İrəvan şəhər seminariyasının müəllimi Firudin bəy Köçərli teatr prosesinin inkişafına dəstək olmaq məqsədilə bir çox işlər görüb. Onun səyi sayəsində teatr həvəskarları, mədəniyyət həvəskarları, sənət əhli bir yerə toplaşmağa başlayıb. Onlar Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşaçılara göstərilməsinə nail olublar. İrəvan teatr həvəskarları tərəfindən Firudin bəy Köçərlinin rəhbərliyi və rejissorluğu ilə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (21 mart 1888-ci il), təkrar quruluşda "Müsyö Jordan və dərviş Məstəli şah" (4 aprel 1890-cı il), "Hacı Qara" (20 oktyabr 1894-cü il), Rzayevin "Könülsüz nikah" (17 fevral 1890-cı il), Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" (10 may 1892-ci il), "Qırt-qırt" (30 noyabr 1893-cü il), Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı" (7mart 1895-ci il) pyesləri tamaşaya hazırlanıb.

Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 1885-1895-ci illərdə İrəvan gimnaziyasında müəllim işləmişdir. O, 1890-cı il aprelin 20-də "Kəşkül" qəzetində dərc edilən "İrəvandan məktub" məqaləsində şəhərdə göstərilən tamaşalar haqqında yazır: "Bu aprelin 4-də darülmüəllimində (yəni Müəllimlər Seminariyasında) elm və kamal təhsil edən müsəlman cavanları hökumət rüsxəti ilə mərhum Mirzə Fətəli Axundovun "Məstəli şah" ünvanında tərtib etdiyi komediyanı oynayıb, cümlənin diqqət və hörmətini cəlb etdilər. Komediya türk dilində oynandı. Təklif olunan icmanın bir o qədər xoşuna gəldi ki, pərdənin axırında afərin sədası göyə çıxıb üç-dörd dəfə pərdənin qalxmağını və oynayanların zühurə gəlməyini əl çalıb tələb edirdilər. "Məstəli şah"dan sonra "Könülsüz nikah" (bu tamaşa həm də "Zor ilə evlənməyin nəticəsi" adlanırdı) ünvanında bir pərdədə tərtib olunmuş təfriqə (vodevil) oynandı. O, dəxi hamının xoşuna gəldi. Məlum oldu ki, "Könülsüz nikah"ı yazan darülmüəllimin şagirdlərindən Rzayev familiyasında bir şagirddir ki, müsəlmanca oxuyub-yazmağa artıq şövqü var. Müsəlman camaatı bir dərəcədə komediyadan razı qaldılar ki, dübarə təkrarına talib və xahişmənd oldular..." [6, s.33-34] Nazim Mustafa yazır ki, Firudin bəy Köçərlinin adını çəkdiyi Rzayev familiyalı şagird həmin Əkbər Rizayevdir" [8, s.194].

Cəlil Məmmədquluzadə 1901-1903-cü illərdə İrəvanda yaşamışdır. Teatr həvəskarları o dönəmlər Cəlil Məmmədquluzadə ilə sıx əməkdaşlıq etmişlər.

1903-cü ildə İrəvandakı Azərbaycan teatr truppası Pənah xan Makinskinin malikanəsində "Qırtqırt" vodevilini tamaşaya qoyur. Onun təşkilatçısı və rəhbəri Yunis Nuri idi. Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" və "Bəxtsiz cavan" pyesləri 1916-1923-cü illərdə dəfələrlə tamaşaya qoyulmuşdu.

1929-1933-cü illərdə İrəvan Dövlət Türk Teatrı əsasən M.Cananın Rza Şeyxzadə və Yusif Yulduzun (Əliyev) rejissorluqları ilə C.Cabbarlının "Sevil" və "Almaz", M.F.Axundovun "Hacı Qara", Q.Sundukyanın "Pepo" və "Xatabala", Ü.Hacıbəyovun "Məşədi İbad" və "Arşın mal alan", S.M.Qənizadənin "Axşam səbri xeyir olar", C.Məmmədquluzadənin "Ölülər", A.Şirvanzadənin "Namus", M.Nasirin "Bədbəxt ailə" və "Zorən izdivac", S.S.Axundovun "Tamahkar" əsərlərini səhnələşdirmişdi. Nəsib Əfəndiyevin "Od içində" pyesi 1934-cü ilin aprelində ilk dəfə tamaşaya qoyulmuşdu. Əsər tamaşaya qoyulduqdan sonra Yazıçılar evində onun disputu keçirilmiş, "Qızıl Şəfəq" qəzetində haqqında geniş resenziya dərc edilmişdi. Daha sonra Nəsib Əfəndiyevin "Qısqanclıq" pyesi də həmin teatrın sənəsində oynanmışdı.

Bu ərəfədə, yəni 1934-1935-ci illərdə İrəvan Türk Teatrı 142 kənddə 160-dan çox tamaşa göstərmişdi.

1939-1941-ci illərdə Əli Şahsabahlı "Vətən namusu", "Lənkəran xanının vəziri", "Dəmirçi gavə", "Jor Danden", "Pəri cadu", "Aydın", "Qaçaq Nəbi", "Müsyö Jordan və dərviş Məstəli şah", "Anzor" tamaşalarının rejissoru olmuşdu. Əli Şahsabahlı həmçinin bir müddət teatrın direktor müavini, sonra isə direktoru olmuşdu. Baxşı Qələndərlinin yeni quruluş verdiyi "Vaqif" tamaşasının premyerası 1941-ci ilin iyun ayında baş tutmuşdu. "İkinci Dünya müharibəsi illərində teatrın kollektivi dövrün tələbinə əsasən ayrı-ayrı dəstələrə bölünərək hərbi hospitallarda, çağırış məntəqələrində çıxışlar edir, tamaşalar sərgiləyirdilər. Jan Batist Molyerin "Jorj Danden", Lope de Veqanm "Quzu çeşməsi", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Mehdi Hüseynin "Nizami", "Cavanşir", Sabit Rəhmanın "Aşnalar", "Xoş bəxtlər", Səməd Vurğunun "Fərhad və Şirin", Əli Zeynalovun "Həyəcanlı qəlb", Əkbər Yerevanlının "Səadət uğrunda", Rza Şahvələdin "Qız qalası" və s. əsərlər müharibə illərində İrəvan teatrının repertuarına daxil edilmişdi [7, s.60-61; 10, s.51].

**ŞƏRQ VƏ QƏRBİ BİRLƏŞDİRƏN REPERTUAR**: İrəvan Dövlət Azərbaycan Dram Teatrının daha ciddi şəkildə fəaliyyətə başlaması fransız dramaturqu Jan Batist Molyerin "Zorən təbib" komediyasının oynanılması ilə bağlıdır. Yunis Nurinin quruluş verdiyi komediyanın ilk tamaşası 14 aprel 1928-ci ildə göstərilib. Bununla da İrəvan Azərbaycan Teatrının yaradıcılığının ikinci və bədii estetik cəhətdən daha sanballı mərhələsi başlayıb.

Bu əsər nə üçün seçilmişdi? Molyerin dünya dramaturgiyasının şah əsərləri sayılan "Tartüf", "İstəksiz nikah", "Zorən təbib", "Mizantrop" və s. komediyalarının bir çoxu Azərbaycanda da səhnəyə qoyulub. Dramaturqun komediyalarında feodal təbəqələri kəskin satira atəşinə tuturdu.

Molyer öz istedadı hesabına qazandığı etimaddan istifadə edərək, əslində, təkcə Fransanın yox, bütünlükdə həmin dövr idarəçilik sistemlərinin qüsurlarını və sosial münasibətləri satirik bir dillə gələcəyə ötürürdü. Əlində teatr kimi güclü və öldürücü bir silah tutan Molyer ictimai həyatı çirklədən, ümid və inkişaf toxumlarını çürüdən, əxlaqi-mənəvi deqradasiyaya yol açan, təkan verən və buna qulluq edənləri bütün reallıqları ilə səhnəyə çıxarır, onları həm həmin dövrün, həm də sonrakı dövrün oxucu və izləyici auditoriyasının gülüş hədəfinə çevirirdi.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının bu addımı elə yeniliyin özü idi.

"İrəvan Dövlət Azərbaycan Dram Teatrı daim yaradıcılığında Qərb ənənəsini davam etdirib. Bu baxımdan 1944-cü ilin aprelində Şekspirin anadan olmasının 380 illiyi münasibətilə İrəvanda VI Ümumittifaq elmi-tədqiqat konfransı və Şekspir tamaşalarının festivalı keçirilmişdi. Sekspir festivalına teatrın rejissoru Baxşı Qələndərli "Otello"nu Cəfər Cabbarlının tərcüməsi əsasında yeni quruluşda tamaşaya hazırlamışdı. Tamaşada Əli Zeynalov Otello, Abbasqulu Tağıyev Yaqo, Əziz Süleymanov Rodriqo, Zarik (Zarina) Teryan Dezdomona, Həsən Mirzəyev Kassio, Əhməd Şəfai Brabansio rollarını yüksək peşəkarlıqla ifa etmişdilər. Münsiflər heyəti kollektivin işinə yüksək qiymət vermişdi. Münsiflər heyətinin üzvü professor Mixail Morozov faciənin azərbaycanca mətninin üzərində bu ifadəni yazmışdı: "Mən Şekspir festivalında əsl ləzzəti azərbaycanlıların "Otello" tamaşasından aldım" [8].

1968-ci ilin iyununda şair-jurnalist Hidayət Orucov İrəvan teatrının direktoru təyin edilmişdir. O, 1984-cü ilin əvvəlinədək kollektivə rəhbərlik etmişdir.

Elçin yazır: "Azərbaycan teatrı qısa bir zaman vahidində Şekspiri nə dərəcə sevdirə bildisə, xalq öz övladlarına Otello, Maqbet, Ofelya kimi adlar qoydu, Hamlet nə dərəcədə xalqın ürəyinə yol tapdı ki, Azərbaycanda ən populyar adlardan biri olmaq səlahiyyətini əldə etdi" [4]. Sovet şekspirşünaslığının banisi Mixail Morozov (1897-1952) kimi nüfuzlu teatrşünasın C.Cabbarlı adına İrəvan Dövlət Teatrına yüksək qiymət vermişdir.

Bu sənət ocağının dövlət teatrı kimi bərpa edilməsində görkəmli Azərbaycan alimi və dövlət xadimi Şıxəli Qurbanovun xüsusi xidməti olmuşdu. Bəxtiyar Vahabzadənin "İkinci səs"

pyesi (25 mart 1971-ci il) Naxçıvan teatrının rejissoru Vəli Babayevin rejissorluğu ilə İrəvan teatrında tamaşaya qoyulmuşdur. Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrına dövlət teatrı statusunun verilməsinin 50 illiyi münasibətilə 1978-ci ildə yubiley tədbirləri keçirilmişdir. Həmin il İrəvan teatrın Bakıya ilk böyük qastrol səfəri baş tutdu. 1985-1987-ci illərdə A.Çexovun "Ayı", Amerika dramaturqu, Nobel mükafatı laureatı Y.O'Nilin "Qarağaclar altında məhəbbət" əsəri, A.Makayonokun "tribunal", V.Şekspirin "Axırı xeyir olsun", Q.Ter-Qriqorovun "Ah əsəblər, əsəblər", tamaşaları göstərilmişdi.

"İrəvan teatrı 1988-ci ildə özünün son iki tamaşasını hazırladı. Həmin ilin fevralından etibarən İrəvan şəhərinin mərkəzində ermənilər Azərbaycanın Dağlıq Qarabağ ərazisinə qarşı iddia ilə fasiləsiz mitinqlər keçirirdilər. Belə bir gərgin şəraitdə teatrın aktyorları fədakarlıq edərək ilin birinci yarısında qırğız dramaturqu M.Bayciyevin "Ər və arvad" dramını Tofiq Ağayevin rejissorluğu ilə, ukraynalı dramaturq Boris Rabkinin "Aya səyahət" əsərini isə Rafael Crbaşovun rejissorluğu ilə tamaşaya hazırladılar. Vəziyyətin günü-gündən gərginləşdiyini görən teatrın rəhbərliyi ləvazimatların bir hissəsini M.F.Axundov adına orta məktəbin üçüncü mərtəbəsinə yığsa da, erməni quldurları, məktəblə birlikdə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının ləvazimatlarını da yandırdılar" [8, s.194].

## Nəticə / *Conclusion*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı Azərbaycan teatrına dövlət səviyyəsində diqqət və qayğını bir daha təsdiqləməkdədir. Ağır günlər yaşayan, böyük sınaqlara tab gətirən İrəvan teatrı 1989-cu il iyul ayının 4-də akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətə başladı, sonradan Abşeron rayonunun Xırdalan qəsəbəsindəki Mədəniyyət evində fəaliyyətini davam etdirdi. Həmin il noyabrın 4-də ilk tamaşa təqdim olundu. Daha sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 avqust 1994-cü il tarixli əmri ilə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Bakıdakı Hüseynqulu Sarabski adına Mədəniyyət evində yerləşdirildi. Vidadi Əliyev teatrın direktoru və bədii rəhbəri təyin edildi. 1989-2000-ci illərdə İrəvan teatrının truppasına gənclər cəlb olundu. Artıq teatrın tarixində yeni bir mərhələ başlayırdı. Beləliklə, yeni-yeni əsərlərin sədası gəlməyə başladı. 2000-ci ildən teatra tanınmış aktyor İftixar Piriyev rəhbərlik edir. Son vaxtlaradək İrəvan teatrında 60-dan artıq tamaşanın premyerası olmuşdur.

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https: //president.az/az/articles/view/55116
2. Azərbaycan teatrının salnaməsi. Birinci hissə. (1850-1920). Toplayanı, tərtib edəni və izahların müəllifi Qulam Məmmədli. – Bakı: 1975, s. 79, s. 83. 310.
3. Bilal Ərdoğan. İrəvan musiqi mühiti. https://ndu.edu.az/wp-content/uploads/Konfrans/irevan%20konfrans.pdf
4. Elçin. Teatr möcüzəsi. https://kulis.az/xeber/senet/xeber-6562
5. Əzizoğlu İ. İrəvan Dövlət Azərbaycan Teatrı: 1882-1927-ci illərdə – Teatr – 135: https://525.az/news/74967-irevan-dovlet-azerbaycan-teatri-1882-1927-ci-illerde-teatr-135
6. Firudin bəy Köçərli. Seçilmiş əsərləri. Bakı: 1963, 341 səh.
7. Məmmədov İsrafil. İrəvan dəftəri III: Teatr tariximizdən səhifələr. Bakı, 2009, 160 səh.
8. Mustafa N.Y. İrəvan şəhəri. Bakı, 2020, 292 səh.

9. Piriyev, İftixar İrəvan Dövlət Azərbaycan Dram Teatrı -mədəni həyatı yaşadan qocaman sənət ocağı. https://respublika-news.az/news/irevan-dovlet-azerbaycan-dram-teatri-medeni-heyati-
10. Rəhimli İlham. Azərbaycan teatr tarixi. Bakı, 2005, 864 səh.

## Ireванский государственный азербайджанский драматический театр в контексте восточной и западной цивилизаций

**Гульхаре Ахмедова**
Заведующая кафедрой театра и культурологии Нахчыванского государственного университета, доктор философии по филологии, доцент, заслуженный деятель культуры Азербайджанской Республики
E-mail: gulxareehmedova1966@gmail.com

В первую очередь, сегодня материально-техническая база театров нашей страны укреплена в соответствии с современными мировыми стандартами, творческие поиски коллектива продолжаются в новом направлении, готовятся новые интересные спектакли, расширяются программы стажировок с престижными западными, в том числе европейскими театрами. Несомненно, заслуги общенационального лидера азербайджанского народа Гейдара Алиева, который во все периоды своего руководства нашей страной как великий покровитель культуры и искусства всегда завоевывал бесконечную симпатию работающих в этой сфере, не имеют себе равных. Сегодня это славное дело успешно продолжает Верховный Главнокомандующий, Президент Азербайджанской Республики Ильхам Алиев. Эта поддержка охватывает не только театры, созданные в Баку и регионах, но и театры, которые были переведены в Баку с этих территорий после оккупации территорий Азербайджана ненавистными армянами в 90-х годах. Следует отметить, что в те годы в столице начали действовать 1 театр беженцев и 3 театра вынужденных переселенцев. Дальнейшая судьба Ереванского, Шушинского, Агдамского и Физулинского государственных драматических театров, таким образом, была связана с Баку. Хотя смена адресов несколько раз на протяжении многих лет затрудняла деятельность театров, они чувствовали необходимость продолжать идти по этому пути и постоянно работали над собой и продолжали свою борьбу. В статье рассматривается один из таких театров - Ереванский государственный азербайджанский драматический театр, который был первым театром, созданным в Ереване на азербайджанском языке. Следует отметить, что после депортации из Армении коллектив театра продолжил свою деятельность как театр-студия при Академическом национальном драматическом театре в Баку и размещался во Дворце культуры “Абшерон”. С 1995 года театр вновь получил государственный статус. Сейчас он размещается во Дворце культуры имени Г. Сарабского.
**Ключевые слова:** Ереванский государственный азербайджанский драматический театр, Баку, Восток, Запад, Азербайджан, культура, развитие, сегодня, вчера.